AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

BAKI DÖVLƏT UNİVERSİTETİNİN

# ŞƏRQŞÜNASLIQ

JURNALI

---

JOURNAL OF

# ORIENTAL STUDIES

OF BAKU STATE UNIVERSITY

1/2024

**Bakı – 2024**

*Azərbaycan Respublikası Ədliyyə Nazirliyində*
*21 oktyabr 2021-ci il tarixində qeydiyyatdan keçmişdir*
*(Mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi 4361)*

*Baş redaktor:*
***akademik* Rafael Hüseynov**

## Redaksiya heyəti:

**BELLİNGERİ GİAMPİERO**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, professor;
Venesiya Ka Foskari Universiteti, İtaliya
**CƏLİLOV OQTAY**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**CHALİSOVA NATALİYA**
Filologiya elmləri doktoru, professor;
Rusiya Dövlət Humanitar Universiteti, Rusiya
**EKİCİ METİN**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, professor;
Ege Universiteti, Türk Dünyası Araşdırmaları İnstitutu, Türkiyə
**FİLİPPOV ALEKSANDR**
Filologiya elmləri doktoru, professor;
Sankt-Peterburq Dövlət Universiteti, Rusiya
**XƏNDAN AYDAN**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**JAVADİ HASAN**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, professor;
Kaliforniya Universiteti, ABŞ
**KAZIMOV MEHDİ**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QARADAĞLI VÜQAR**
Filologiya elmləri doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QASIMOVA AİDƏ**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**LO MBAYE**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, professor;
Dyuk Universiteti, ABŞ
**MANSOOR ASMA**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, professor;
İslamabad Beynəlxalq İslam Universiteti, Pakistan
**MƏMMƏDOVA ƏSMƏTXANIM**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**NİKOLAYEVA MARİYA**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Rusiya Elmlər Akademiyası, Rusiya
**OCHİLOV OZODCON**
Filologiya elmləri üzrə fəlsəfə doktoru;
Özbəkistan Dövlət Şərqşünaslıq Universiteti, Özbəkistan
**RƏSULOV ƏSGƏR**
Filologiya elmləri doktoru, professor;
Milli Arxiv İdarəsi, Azərbaycan
**RÜSTƏMOV RÜFƏT**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**SUFİZODA SHODİMAXAMMAD**
Filologiya elmləri doktoru, professor;
Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan
**TOBİA STEFAN**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, professor;
Strasburq Universiteti, Fransa

Bakı Dövlət Universitetinin **ŞƏRQŞÜNASLIQ** jurnalı/Journal of **ORIENTAL STUDIES** of Baku State University, № 1 (4), 2024. – 168 səh. Bakı, BDU, 2024.

© Bakı Dövlət Universiteti, 2024

# OXUYACAQLARINIZ



## ƏDƏBİYYATŞÜNASLIQ


*DƏMİROVA Cəmilə*
**ƏRƏB NƏSRİNDƏ ŞÜUBİLİKLƏ BAĞLI MÜLAHİZƏLƏR**
Considerations on shu`ubi in arabic prose **11**

*HÜSEYNOVA Dilbər*
**ƏRƏB ƏDƏBİYYATINDA MƏRSİYƏ JANRININ TARİXİ İNKİŞAFI VƏ ONUN PARLAQ NÜMUNƏLƏRİ**
The historical development of the genre of lamentation in Arabic literature and its bright examples **20**

*HÜSEYNOV Rafael*
**HAJI ZEYNALABDIN SHIRVANI'S LIFE COMPLETED IN TRAVEL**
Hacı Zeynalabdin Şirvaninin səyahətdə tamamlanan ömrü **28**

*KARAHAN Mədinə*
**ƏHMƏD BƏY AĞAOĞLUNUN "SƏRBƏST İNSANLAR ÖLKƏSİNDƏ" ƏSƏRİNDƏ FƏRD VƏ CƏMİYYƏT MÜNASİBƏTLƏRİ**
The Relationship between the Individual and Society in Ahmed Beg Aghaoglu's "In the Land of Free People" **61**

*ƏLİYEVA Nərmin*
**THE CONCEPT OF A UNIFIED HOMELAND IN THE POETRY OF MOHAMMAD-HOSSEIN SHAHRIAR**
Məhəmmədhüseyn Şəhriyar yaradıcılığında vahid vətən konsepsiyası **67**

*AĞABƏYLİ Vüsalə*
**XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATINDA YENİ QADIN OBRAZLARI VƏ ONUN ŞƏRQ ƏNƏNƏSİ İLƏ ƏLAQƏSİ**
New female images 20th sentury Azerbaijani literature and their relationship with Eastern literary tradition **74**


## DİLÇİLİK


*HÜSEYNOV Rafael*
**GÖRKƏMLİ ALİMİN NƏŞRİ BAŞ TUTMAMIŞ, MƏZMUNU GƏRƏKLİLİYİNİ İTİRMƏMİŞ, QAYIDIŞI FAYDALI TARİXİ ARAŞDIRMASI**
A Historical Study by a Prominent Scholar: Unpublished, Still Relevant by Content and Worth Revisiting **87**

*CƏFƏR Əkrəm*
**QƏDİM TÜRK DİLLƏRİ ABİDƏLƏRİNDƏ FEİLİ SİFƏT VƏ FEİLİ BAĞLAMALAR**
Verbal Adjectives and Verbal Conjunctions in the Monuments of the Ancient Turkish Languages **99**

## TƏRCÜMƏ NƏZƏRİYYƏSİ VƏ ÇEVİRMƏLƏR

*ASLAN Aygün*

**MƏHƏMMƏD İQBALIN URDU DİLİNDƏ OLAN ŞEİRLƏRİNDƏN SEÇMƏLƏR**

Selections From Muhammad Iqbal's Poems in Urdu **145**

## TƏQDİMATLAR, RƏYLƏR, DƏYƏRLƏNDİRMƏLƏR

*NURİYEVA Kəmalə*

**ABBASQULU AĞA BAKIXANOVUN "TƏHZİBİ-ƏXLAQ" ƏSƏRİNİN TƏKMİLLƏŞDİRİLMİŞ VƏ "MİRATU-L-CƏMAL" ƏSƏRİNİN İLK TAM NƏŞRİ HAQQINDA**

On the Enhanced Edition of Abbasgulu Agha Bakikhanov's "Tahzibi-Akhlag" and the First Complete Publication of "Miratu-l-Jamal" **159**

**APA7 qaynaqgöstərmə təlimatı** **164**

**Nəşrə dair tələblər** **166**

**Publication requirements** **167**

# ƏDƏBİYYATŞÜNASLIQ



**UOT 821.411.21**

# ƏRƏB NƏSRİNDƏ ŞÜUBİLİKLƏ BAĞLI MÜLAHİZƏLƏR

**CƏMİLƏ DƏMİROVA***


## Xülasə

*Cəmiyyətdə azadfikirliliyə təkan verən şüubi hərəkatı ərəb ədəbiyyatında yalnız etnik düşüncə tərzinin ifadəsi olmayıb, bir sıra mühüm mədəni prosesləri əks etdirmişdir. Bura həm qeyri-ərəblərin İslamaqədərki qədim dini baxışlarının dirçəldilməsi (məsələn, manixeyçilik), ərəb poetik ənənələrinə tənqidi yanaşma, həm də İslam daxilində heterodoks cərəyanların fəallaşması (məsələn, şiəlik) daxil idi. Öz kökləri ilə Cahiliyyə dövrünə gedib çıxan bu ədəbi proses, yəni etnik azlıqların azadfikirliliyi Abbasilərin qızıl əsri sayılan VIII–X əsrlərdə özünün zirvə mərhələsinə çatır.*

*Şüubilərin öz əsil-nəcabətləri ilə öyünüb ərəbləri təhqir etməsi növbəti mərhələdə ərəb təəssübkeşlərini hərəkətə gətirir. Ədəbiyyatda şüubilərə qarşı müqaviməti təşkil edən klassisizm, ənənələrə qayıdış güclənir. Ərəbləri qədim söz sənətinin sahibi kimi təqdim edən ərəb təəssübkeşləri arasında poeziya nümunələrinin toplanması qayğısına qalınır, bir çox antologiyalar meydana çıxır. Cəmiyyətdə mötəziliyə xas mübahisə və diskussiyalar zirvə həddinə çatır. Məscidlər, bazarlar ərəb və əcəm xalqlarının mübahisə meydanına çevrilir. Bu mübahisələr bir sıra ədəbi nümunələrə, əl-Cahizin və İbn Abd Rəbbihinin əsərlərinə yol açır.*


**Açar sözlər:** *şüubi hərəkatı, antişüubiyyə, ərəb-əcəm münasibətləri*

## Giriş

Bir hərəkat olaraq şüubiliyin yüksək inkişafı VIII–X əsrlərə təsadüf edir. Bu, müsəlmanların həyatında olduqca mühüm dövr idi. Məhz bu əsrlərdə çoxsaylı xalqlar İslama tapınmışlar. Onların arasında farslar, türklər, nəbatilər, yunanlar və qiptilər üstünlük təşkil edirdi. Müxtəlif sivilizasiyaları təmsil edən bir çox xalqların İslama tapınması bu ərazilərdə kosmopolitan bir cəmiyyətin yaranması ilə nəticələndi (Sarvan, 2008: 42). Beləliklə, müsəlman cəmiyyətində yüksək sivilizasiya nümayəndələrinin özlərindən mədəni səviyyəsinə görə qat-qat aşağı olan bədəvi ərəblərin əsarəti altına düşməsi cəmiyyətdə qarşıdurma yaradır, ideoloji mübahisə və ittihamları qaçılmaz edirdi. Bunun izlərini həm poeziyada, həm də nəsr nümunələrində tapmaq mümkündür. Poetik nümunələrdə həcv əhval-ruhiyyəsi üstünlük təşkil edirdi. Şairlər qarşı tərəfin nöqsan və çatışmazlıqlarını gündəmə gətirir, onları tənqid obyekti edirdilər. Eyni əhval-ruhiyyə nəsr əsərlərində də hökm sürürdü. Amma burada emosional ittihamların yerini əsaslandırılmış mülahizələr tuturdu. Nəsr nümunələrində alim-ədiblər hər bir fikri isbata yetirməyə can atırdılar. Onlar qarşı tərəfin fikirlərinə də laqeyd qalmayıb, onları da əks etdirir, sonra meydanı mübahisələrə verirdilər. Buna görə də İslam cəmiyyətində şüubiliyin mahiyyətini anlamaq üçün nəsr nümunələrinin mühüm əhəmiyyəti var. Bu yazıda məqsəd klassik ərəb ədəbiyyatının iki görkəmli nümayəndəsinin – Əmr ibn Bəhr əl-Cahizin (767/775–868/869) və İbn Abd Rəbbihinin (860–940) şüubiliklə bağlı

* Filologiya üzrə fəlsəfə doktoru; Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyi; jamiladamirova@yahoo.com

fikirlərini araşdırmaqdır. Xronoloji baxımdan Cahiz İbn Abd Rəbbihidən əvvəl yaşasa da, araşdırmamızı ikinci ədibin əsəri ilə başlayırıq. Bunun iki səbəbi var:

1) Cahizdən fərqli olaraq, İbn Abd Rəbbihi məsələni daha geniş təhlil edir. Bu təhlil bizə şüubilik barədə tam təsəvvür əldə etməyə imkan yaradır. Cahiz isə şüubiliyin ayrı-ayrı tərəflərini əks etdirir. Onun mülahizələrini anlamaq üçün şüubilik barədə icmal halında da olsa, təsəvvür əldə etmək lazımdır ki, bu işdə bizə İbn Abd Rəbbihinin əsəri kömək edir.

2) Cahizin əsərlərində şüubilik və onun tənqidi motivləri dağınıq haldadır. İbn Abd Rəbbihidə isə bu mövzu konkret bəhsdə – "əl-İqd əl-Fərid", "Nəsəb və ərəblərin fəzilətləri haqqında nadir mirvari" كتاب اليتيمة في النسب وفضائل العرب kitabının bir neçə paraqrafında əks olunub (İbn Abd Rabbihi, 1983: 351). Əsərin mühüm məziyyətlərindən biri zəmanəmizədək gəlib çatmamış bəzi əsərlərə istinad etməsidir. Bu səbəbdən "əl-İqd əl-Fərid"in bəzi hissələri şüubiliklə bağlı antologiya təsiri bağışlayır.

Məhz bu səbəblərdən nəsr əsərlərində şüubiliyin əksi ilə bağlı bəhsimizi İbn Abd Rəbbihinin əsəri ilə başlayırıq.

## 1. İbn Abd Rəbbihinin "Nəsəb və ərəblərin fəzilətləri haqqında nadir mirvari" əsərində şüubilərlə bağlı fikirlər

Əsərin "Yetimə" kitabında قول الشعوبية وهم اهل التسوية (Bərabərlik əhli olan şüubilərin dedikləri) adlı bəhsdə İbn Abd Rəbbihi ilk növbədə şüubilərin bərabərlik tərəfdarı olmasını qeyd edir. O öz bəhsini şüubilərin aşağıdakı fikri ilə başlayır:

من حجة الشعبية على العرب ان قالت: إنّا ذهبنا إلى العدل والتسوية وان الناس كلهم من طينة واحدة وسلالة رجل واحد.

*Şüubilər ərəblərə qarşı aşağıdakı şəkildə mübahisə edirlər: Biz ədalət və bərabərlik iddiasındayıq. İnsanlar hamısı torpaqdan xəlq olub, onlar hamısı vahid bir əcdadın sülaləsidir.*

İslam tarixində hər bir hərəkat, hər bir təriqət özünü Quran və hədislər baxımından möhkəmləndirməyə can atırdı. Şüubilər də öz fikirlərinin isbatını Quranda və hədislərdə axtarırdılar. Onlar ilk növbədə Quranın "Hucurat" surəsinin 13-cü ayəsinə istinad edirdilər. Bundan əlavə, onların əsas dəlili Məhəmməd peyğəmbərin Vida həcci zamanı söylədiyi sözlər idi. İbn Abd Rəbbihi bu barədə onların öz dilindən yazır:

احتججنا بقول النبي عليه الصلاة والسلام... "أيها الناس، ان الله اذهب عنكم نخوة الجاهلية وفخرها بالآباء، كلكم لآدم وآدم من تراب، ليس لعربي على عجمي إلا بالتقوى"(İbn Abd Rabbihi, 1983: 352).

*Biz peyğəmbərin (s.ə.s.) sözləri ilə öz fikrimizi sübut edirik: "Ey insanlar, Allah sizə Cahiliyyə dövrünün yekəxanalığını və əcdadlarla fəxr etməyi qadağan etdi. Siz hamınız Adəm övladısınız. Adəm isə torpaqdandır. Ərəbin əcəm üzərində üstünlüyü ancaq təqva ilə ola bilər.*

İnsan nə ilə fəxr edə bilər? Bu barədə ərəb təəssübkeşlərinin fikri şüubilərdən fərqlənir. Yuxarıda gördüyümüz kimi, ərəblər əcdadlarına çox bağlı olublar. Təsadüfi deyil ki, onlar nəsəb elmini – genealogiyanı inkişaf etdirib bəzən öz əcdadlarını Adəmədək sayırdılar. Halbuki, şüubilərə görə, hər bir qövm iki şeylə fəxr edə bilər:

1) Müqtədir dövlətlərinin olması ilə;

2) Qövmlərindən peyğəmbərlər çıxmasına görə.

Ədib yazır:

ان قالت لكم العجم هل تعدون الفخر كله ان يكون ملكا أو نبوة؟ وان زعمتم أنه ملك قالت لكم: وإنّ لنا ملوك الارض كلها من الفراعنة والعمالقة و الاكاسرة والقياصرة. هل ينبغي لاحد ان يكون له مثل ملك سليمان الذي سخّرت له الانس والجنّ والطير والريح وانما هو رجل منا؟ أم هل كان لاحد مثل ملك الإسكندر الذي ملك الارض كلها وبلغ مطلع الشمس ومغربها(İbn Abd Rabbihi, 1983: 352).

*Beləliklə, əcəmlər deyir ki, əgər fəxr mənbəyi hakimiyyət və peyğəmbərlikdirsə, onda dünyanın böyük hökmdarları hamısı bizim aramızdan çıxıb: fironlar, Əmaliklər, Sasanilər, Roma çarları. Bizdən başqa kiminsə cinlərin, quşların və küləklərin tabe olduğu Süleyman kimi hökmdarı olubmu? Və yaxud, kiminsə Məşriqdən Məğribədək böyük ərazilərə sahib olmuş yer üzərində hökmranlıq edən İskəndər kimi bir hökmdarı olubmu?*

Burada diqqəti cəlb edən şüubilik tərəfdarlarının öz qədim dövlətçilik ənənələri ilə öyünməsidir. Sasanilərin və Bizans–Roma imperatorluğunun qədim dövlətləri həmişə antiərəb koalisiyasının fəxr mənbəyi olub. Onlar bu məsələdə bir cəbhədə birləşməyi də unutmurdular. Tarix boyu Sasanilərin ən böyük düşməni Bizans imperatorluğu olub. Amma şüubilər bu düşmənçiliyi unudub həm romalı, həm də Sasani əcdadları ilə öyünürlər. Çünki Yəməndəki Səba, Məin, Himyər kimi dövlətləri nəzərə almasaq, ərəblərin güclü dövlətçilik ənənəsi olmayıb. Şimaldakı Qəssanilər və Ləxmilər isə Bizans və Sasani imperatorluqlarının vassal dövlətləri idi. Şüubilər dövlətçilik ənənələri ilə öyünərkən qədim yəhudi tarixini də yada salırlar. Yenə də romalıların yəhudilərə qarşı əsrlər boyu davam etmiş düşmənçiliyi unudulur. Yəhudi hökmdar, Quranda dəfələrlə yad edilən Süleyman peyğəmbərlə fəxr edilir. Əslində qeyri-ərəb mənşəli hər bir hökmdar şüubinin fəxr mənbəyi idi. İran şahı Daranın taxt-tacını ələ keçirmiş Makedoniyalı İskəndər də bu hökmdarlar arasında idi. Bunun ardınca şüubilər peyğəmbərlərlə fəxr etməyin doğru olduğunu söyləyirlər:

وان زعمتم انه لا يكون الفخر إلا بنبوة فإن منا الانبياء والمرسلين قاطبة من لدن آدم ما خلا أربعة: هوداً وصالحاً واسماعيل ومحمداً ومنّا المصطفون من العالمين: آدم ونوح وهما العنصران اللذان تفرع منها البشر ونحن الاصل وأنتم الفرع وانكم غصن من أغصاننا (İbn Abd Rabbihi, 1983: 353).

*Əgər fəxr mənbəyi peyğəmbərlərdisə, onda dörd nəfərdən – Hud, Saleh, İsmayıl və Məhəmməddən başqa, Adəmdən başlayaraq bütün seçilmiş peyğəmbərlər bizim aramızdan çıxmışdır. Adəm və Nuh bəşəriyyətin kökündə dayanan iki mühüm peyğəmbərdir. Belə olduqda biz əsildə, kökdə dayanan peyğəmbərlərin nəsliyik, biz gövdəyik, siz isə bizim qolbudağımızsınız.*

Gördüyümüz kimi, şüubilər öz iddialarında o qədər subyektivdirlər ki, hətta Adəm və Nuh peyğəmbərlərə də sahib çıxırlar. Əksəriyyəti farslardan olan şüubilər asanlıqla yəhudi peyğəmbərlərini də öz əcdadları sayırdılar. Onların fikrincə, qeyri-ərəb olan hər bir görkəmli peyğəmbər əcnəbilərdən sayılmalıdır. Bu zaman onlar Adəmin bütün bəşəriyyətin atası olması barədə dini təsəvvürü də yaddan çıxarırlar. Dövlətçilik və peyğəmbərlik barədə mülahizələrlə kifayətlənməyib, elm, sənət, fəlsəfə sahəsində üstünlükləri də özlərinə aid edirlər. Onlar fəxr mənbəyi kimi yunan fəlsəfəsini, Hindistanda kəşf olunmuş şahmat oyununu, eləcə də teleskopun kəşfini saymaqla bir çox toplumların birgə nailiyyətini ərəb mədəniyyətinə qarşı qoyurlar. Əcəm xalqlarının bütün bu üstünlüklərini saydıqdan sonra şüubilər ərəblər barədə mülahizələrini bildirirlər:

لم يكن العرب ملك يجمع سوادها ويضم قواصيها ويقمع ظالمها وينهي سفيهها ولا كان لها قط نتيجة في صناعة ولا أثر في فلسفة، إلا ما كان من الشعر وقد شاركتها فيه العجم وذلك ان للروم أشعاراً عجيبة قائمة الوزن والعروض فما الذي تفخر به العرب على العجم فإنما هي كالذئاب العادية والوحوش النافرة يأكل بعضها بعضاً ويغير بعضها على بعض.
(İbn Abd Rabbihi, 1983: 353)

*Ərəblərin qara camaatı bir yerə yığan, ölkələrinin ucqarlarını bir araya gətirən zalımları cəzalandırıb səfehlərin hərəkətlərinə son qoyan bir dövlətləri olmayıb. Onların sənətdə və fəlsəfədə də uğurları yoxdur. Bacardıqları ancaq şeir sənətidir ki, bu sənətdə də əcəm xalqları onlardan geri qalmayıb. Romalıların gözəl şeirləri var. Onlar bu şeirlərdə ərəblərin çox fəxr etdiyi əruz vəznini tətbiq ediblər. Ərəblər adi bir canavardan, mənfur vəhşidən fərqlənməyib. Onlar bir-birinin ətini yeyib, bir-biri ilə düşmənçilik ediblər.*

Gördüyümüz kimi, şüubilər ərəblərə qarşı ittihamlarında daha irəli gedib onlar arasında birlik olmamasını, qəbilələrarası düşmənçilikləri də xüsusi vurğulayırlar. Ərəblərin bir-birinin ətini yeməsi də məcazi məna daşımır. Ərəb adətinə görə, döyüş zamanı qalib tərəf məğlub tərəfin qanını içir, ətini dişinə çəkirdi. Məsələn, Uhud döyüşündə Əbu Sufyanın arvadı Hind Bədr döyüşündə həlak olmuş qohumlarının qisasını almaq üçün öldürülmüş Həmzənin ciyərini dişlərinə çəkir. Kannibalizmin bu növü exsokannibalizm adlanır.

İbn Abd Rəbbihi şüubilərin dili ilə ərəb tarixindən bəzi məqamlara toxunur; ərəbin qadınlara qarşı kobud və zalım olduğunu göstərir:

سبى ابن هبولة الغساني امرأة الحارس بن عمرو الكندى فلحقه الحارس فقتله ارتجع المرأة وكان قال منها، فقال لها: هل كان اصابك؟ قالت نعم.... فاوثقها بين فرسين ثم استحضرهما حتى قطعاها (İbn Abd Rabbihi, 1983: 354).

*İbn Həbulə əl-Qəssani Haris ibn Əmr əl-Kindinin arvadını əsir tutur. Haris ibn Həbuləni tutub öldürür və arvadını geri qaytarır. O, arvadından soruşur: Sənə toxundumu? Arvadı "bəli" deyir. Haris arvadını iki ata bağlayıb atları çapdırır və arvadı parça-parça olur.*

Ərəb tarixindən qadınlara bu cür mənfi münasibəti misal çəkməklə şüubilər onların sivilizasiyadan uzaq olduğunu vurğulayırlar. Ərəblərin dünyaya yenicə göz açmış qız uşaqlarını diri-diri torpağa gömməsi də şüubilərin kəskin tənqid hədəfi olub. Bu, xüsusilə poeziyada geniş yer alir. Məlumdur ki, İslam şəhərdə – Məkkədə yaranıb, sonra digər bir şəhərdə – Mədinədə inkişaf etmişdir. Bu şəhərlər hər tərəfdən bədəvi tayfaları ilə əhatə olunmuş və öz həyatlarını, iqtisadi-siyasi əlaqələrini bu qəbilələrlə münasibət üzərində qurmuşlar. Qəbilə-tayfa münasibətləri bu şəhərlərdə də hökm sürürdü. Buna görə də İslamın yarandığı mühitin tam urban mühit olduğunu iddia etmək düzgün olmazdı. Ərəblər əsl urbanizasiya ilə fütuhatdan sonra tanış oldular. S. Sarvan haqlı olaraq göstərir ki, şüubilər İslam çərçivəsi daxilində urbanizasiyanın təbliğatçıları idilər. Onlar öz yüksək mədəniyyətlərini urban mədəniyyəti kimi təbliğ edərkən ərəblərin səhra həyatını və köçəri yaşamlarını tənqid hədəfi kimi seçirdilər (Sarvan, 2008: 42).

Şüubilər özlərinin fəxr mənbələrini sayarkən əllərində olan bütün vasitələrlə ərəbləri alçaltmağa can atır, özlərinin üstünlüklərini qabardırlar. Onlar hətta, birmənalı olaraq, ərəbin adı ilə bağlı olan İslam dininə də şərik çıxmağı unutmurdular. Şüubilərin bu ittihamları qarşısında ərəblərin də öz arqumentləri var idi. Onlar İslamın yaradıcısının öz aralarından çıxması, müqəddəs Quranın ərəb dilində olması ilə öyünürdülər.

Ərəbin fikrincə, məhz bu səbəbdən onlar digər xalqlardan üstün idilər. Məhz onların həyat tərzi və mədəniyyəti İslam cəmiyyətinin simasını müəyyənləşdirməli idi. Onlar səhra həyatını, bədəvi ərəbi dönə-dönə tərifləyirdilər. Onların fikrincə, səhra həyatı ərəbləri kasıb etsə də, onlara bir sıra yüksək məziyyətlər aşılayıb. Ağır həyat şəraiti onlara igidlik və səxavət kimi mənəvi keyfiyyətlər xas edib. İbn Quteybə (828–889) və əl-Məsudi (896–957) bir sıra əxlaqi məziyyətlərə görə ərəblərin məhz səhra həyatına borclu olduqlarını vurğulayırdılar (Sarvan, 2008: 42-46).

"Əl-İqd əl-Fərid"in sonrakı bəhsləri diskussiya xarakteri daşıyır. Müəllif əvvəl əks tərəfin – antişüubilik tərəfdarı və ərəb təəssübkeşi İbn Quteybənin fikirlərini əks etdirir. Daha sonra şüubilərin İbn Quteybənin iddialarını rədd edən paraqraf gəlir. Bundan sonra ərəblərin nikahagirmə üsulları tənqid edilir. Lap sonda isə yenidən ərəb təəssübkeşlərinin rəyi səslənir.

Qeyd etdiyimiz kimi, "əl-İqd əl-Fərid"in üstün cəhətlərindən biri zəmanəmizədək gəlib çatmamış bəzi əsərlərdən fraqmentlər əks etdirməsidir. Bu əsərlərdən biri İbn Quteybənin تفضيل العرب – "Tafdıl əl-arab" (Ərəblərin üstün tutulması) əsəridir. İbn Abd Rəbbihi bu əsərdən misallar gətirməklə antişüubiyyə hərəkatı nümayəndələrinin baxışlarını əks etdirir. İbn Quteybə yuxarıdakı Quran ayəsinin (Hucurat, 13) və Vida həcci ilə bağlı deyimlərin hərfi mənada anlaşılmasının əleyhinə çıxır. O bildirir ki, bütün insanların bərabərliyini iddia etmək zahirilikdir, yəni Quranın zahiri mənasına uyub ayənin mahiyyətinə varmamaqdır. Əgər insanlar hamısı bərabər olsaydı, onda peyğəmbər " اذا اتاكم كريم قوم فاكرخوه" – *"Sizin yanınıza bir qövmün hörmətli adamı gələndə ona ehtiram göstərin",* – deməzdi. O, Qeys ibn Asim barədə هذا سيد أهل الوبر – *"Bu, səhra əhlinin ağasıdır",* – deyib (İbn Abd Rabbihi, 1983: 356).

İbn Quteybə bu cür misallar gətirməklə şüubilərin bərabərlik (تسوية) ideyasına qarşı çıxır. Onun fikrincə, insanların və qövmlərin bərabər olması səhv fikirdir. İbn Quteybəyə görə, şüubilərin Adəmi məhz özlərinin əcdadı sayıb onunla fəxr etmələri də boş bir iddiadır. Bu zaman şüubilər peyğəmbərdən söylənilən aşağıdakı hədisə istinad edirlər:

لا تفضلون عليه فإنما أنا حسنة من حسناته (İbn Abd Rabbihi, 1983: 357).

*Məni ondan (Adəmdən – C.D.) üstün tutmayın. Mən onun yaxşı cəhətlərindən yalnız biriyəm.*

"əl-İqd əl-Fərid"də şüubilərin ərəblərin nikaha girmələri barədə tənqidi fikirləri də yer alır. Ərəblər bir qəbiləyə basqın edərkən onların qadınlarını əsir alıb onlarla əlaqəyə girir, bu səbəbdən doğulan uşaqların kimdən olması da məlum olmur (İbn Abd Rabbihi, 1983: 357).

Əcəmlərin bu ittihamları müqabilində müəllif ərəbin əcəmə olan yaxşılıqlarını, onlarla birgə namaz qılmasını, onları öz süfrələrinə dəvət etməsini yada salır və şüubilərin ittihamlarını naşükürlük sayır.

## 2. Əl-Cahizin "əl-Bəyan va ət-Təbyin" əsərində şüubilərlə bağlı fikirlər

Şüubilərin ərəblər əleyhinə bəzi fikirləri əl-Cahizin (775–868) البيان والتبيين (əl-Bəyan va ət-Təbyin) əsərində qeyd olunub.

Məlumdur ki, Cahiz Abbasilər xilafətinin ikinci dövrünün görkəmli ədibi idi. Bu dövr ədəbiyyat tarixində "ənənələrə qayıdış" və ya "klassisizm" dövrü adlanır. Abbasilər ədəbiyyatının "yeniləşmə" adlanan birinci dövründə ədəbiyyatda fars təsiri güclü idi. Bu

dövrün xarakterik cəhəti Bəşşar ibn Burd (714–783), Əbu Nuvas (756/762–814) kimi şairlərin simasında şüubiliyin güclənməsi idi. Abbasilər ədəbiyyatının bu mərhələsi ərəb təəssübkeşlərinin güclü müqavimәti ilə rastlaşır. Onlar şüubi-fars ənənələrini rədd edib, qədim ərəb ədəbi ənənələrini dirçəltməyə çalışırlar. Poeziya sahəsində bu istiqamətin görkəmli nümayəndələri Əbu Təmmam (804/807–846) və Buhturi (821–897) idi. Nəsr sahəsində isə Cahiz çox məşhur idi.

Cahizin ərəb-əcəm polemikalarına geniş yer verməsi həm də onun mötəzili baxışları ilə bağlı idi. Mötəzililər hər bir məsələni diskussiya, polemika meydanına çəkir, uzun-uzadı mübahisələri xoşlayırdılar. Cahizin əsərlərində də bu cür polemik ruh duyulur. Ərəb-əcəm polemikası xüsusilə البيان والتبيين (Bəyanat və aydınlaşdırma) əsərində geniş əks olunub. Çünki burada ərəblərin fəxr yeri olan söz sənəti və əcəmlərin buna münasibəti məsələləri əks olunub. Cahiz ərəb təəssübkeşi kimi deyir:

لليونانيين فلسفة وصناعة منطق وكان صاحب المنطق نفسه بكيء اللسان، غير موصوف بالبيان، مع علمه بتمييز الكلام وتفصيله ومعانيه وخصائصه، وهم يزعمون أن جالينوس كان انطق الناس ولم يذكروه بالخطابة ولا بهذا الجنس من البلاغة وفي الفرس خطباء إلا أن كل كلام للفرس وكل معنى للعجم وانما هو عن طول فكرة وعن اجتهاد وخلوة، وعن مشاورة ومعاونة، وعن طول الفكر ودراسة الكتب (əl-Cahiz, 1998: 27-28).

*Yunanların fəlsəfəsi olub. Onlar məntiqin əsasını qoyub. Amma Sahibul-məntiqin (Aristotel – C.D.) özünün dili qüsurlu olub, nitqi aydın olmayıb. Halbuki o, söz sənəti, onun növləri, məna və xüsusiyyətləri barədə bilgi sahibi idi. Onlar (şüubilər) iddia edirlər ki, Cəlyinus ən gözəl nitqə malik bir insandır. Amma onun heç bir bəlağəti olmayıb. Farsların da xətibləri olduğunu iddia edirlər. Halbuki farsın hər bir kəlamı, əcəmin yaratdığı hər bir məna uzun-uzadı düşüncənin, fikirləşmənin, uzun-uzadı xəlvətə qapılıb (söz axtarmağın) nəticəsidir. Onlar bu barədə məşvərət edir, yaxınlarından kömək diləyir, götür-qoy edir, kitabları oxuyurlar.*

Cahiz bununla demək istəyir ki, əsl söz sənəti bədahətən yaranmalıdır. Kitabları oxuyub məşvərət aparmaqla, uzun-uzadı çalışıb üzərində işləməklə yaranan sənət nümunələri əsl bəlağətdən uzaqdır. Bu, əcəmin ərəbdən fərqidir. Ədib davam edib yazır:

وكل شيء للعرب فانما هو بديهة وارتجال وكأنه إلهام وليست هناك معاناة، ولا مكابدة ولا إجالة فكر ولا استعانة... كانوا أميين لا يكتبون ومطبعين لا يتكلفون وكان الكلام المجيد عندهم اطهر أو اكثر، وهم عليه أقدر (əl-Cahiz, 1998: 28).

*(Bəlağət sahəsində) hər şey ərəbə məxsusdur. Ərəb bədahətən, sinədəftər danışır. O, sanki ilhama gəlir. Onun burada heç bir çətinliyi, gərginliyi olmur. O, qabaqcadan fikirləşmir, kimdənsə kömək istəmir. Ərəblər yazıb-oxumağı bilmirdilər. Onlar təblə danışırdılar, bu işdə əziyyət çəkmirdilər. Onların yaxşı kəlamı aydın, bol idi. Onlar müqtədir natiq idilər.*

Ərəblərin söz sənətində üstünlüyünü farslar bəyənmirdilər. Onlar bu sənəti də öz adlarına çıxmağa çalışırdılar.

Məlumdur ki, ərəb-İslam fəlsəfi fikri yunan fəlsəfəsindən qaynaqlanmışdır. Ərəblərin fars yazılı abidələrinə bələd olması da məlumdur. İbn əl-Müqaffa (756/760–840) bir sıra fars abidələrini ərəb dilinə tərcümə etmiş, qədim sanskrit abidəsi olan "Kəlilə və Dimnə"ni də ərəb auditoriyasına çatdırmışdır. Buna baxmayaraq, elm aləmində ərəb poetika elminin, eləcə də *bəlağət* və *bəyan* anlamlarının təmiz ərəb məhsulu olduğu söylənilir. İbn əl-Mutəzz (861–908) كتاب البديع (Kitəb əl-bədi) əsərini sırf ərəb zəminində orijinal bir əsər kimi yaratmışdır. Mifik tanrılardan bəhs edən qədim

yunan ədəbiyyatının da ərəb ədəbiyyatına təsiri zəif olub. Yəni ərəb ədəbiyyatının kənar təsirlərdən uzaq orijinal nümayəndələrinin özlərinə xas olan, bir növ, ayin xarakterli adətləri olub ki, başqa xalqların nümayəndələri onların mahiyyətini anlamırdı. Məsələn, Cahizin şüubilərlə bağlı fikirlərində ərəblərin şeir və xütbə söyləyərkən əsa ilə ritm tutması, nizə və xəncərlərini oynatması adətinə şüubilərin münasibəti də yer alıb. Adətən şüubilər ərəblərin bu adətini bəyənmir, əsa, nizə və s. ilə söz sənəti arasında heç bir əlaqə görmürdülər. Onların fikrincə, ərəblər bu cür hərəkətlər edərkən insanların fikrini özlərinin mənasız çıxışlarından yayındırmaq istəyirdilər (Sarvan, 2008: 45). Cahiz "əl-Bəyan və ət-Təbyin" əsərində bu məsələyə geniş yer ayırır. O, əsərinin "كتاب العصا" (Kitəb əl-asə) adlanan böyük bir fəslini əsaya həsr edib və bu bəhsdə ərəblərin natiqliq sənəti ilə bağlı məsələləri və şüubilərin tənqidi mülahizələrini əks etdirib. Cahiz yazır:

نبدأ على اسم الله بذكر مذهب الشعوبية ومن يتجلى باسم التسوية وبمطاعنهم على خطباء العرب: بأخذ المخصرة عند مناقلة الكلام... وأخذ المخاصر في كل حال وجلوسها في خطب النكاح وقيامها في خطب الصلح... قالت الشعوبية ومن يتعصب للعجمية: القضيب للإيقاع والقناة للبقار والعصا سبب ولابينه وبين القوس نسب وهما إلى أن يشغلا العقل.
(əl-Cahiz, 1998: 5-6)

*"Bismillah" deyərək bu fəsli şüubilərin məzhəbini yada salmaqla başlayırıq. Onlar bərabərlik iddiası edir, ərəb xətiblərinə tənə yağdırırlar və deyirlər ki, onlar hər bir xütbədə əsa hərləyir, nikahla bağlı xütbələrində əyləşir, sülhlə bağlı xütbələrində ayaq üstə söyləyirlər. Əcəm təəssübkeşi olan şüubilər deyirlər: Çubuq, əsa mal-qara üçündür, əsa ilə insanlar vuruşurlar, yayla ox atırlar. Xütbə ilə əsanın nə əlaqəsi ola bilər? Yay hara, söz sənəti hara? Bu alətlərdən istifadə etməklə ərəblər adamların diqqətini yayındırırlar.*

Qeyd etmək istərdik ki, əsa, yay, ox kimi arxetiplər bir çox xalqların mifik düşüncəsində mühüm yer tutur. A. Qasımova "Cahiliyyət ərəblərinin əqli-mənəvi durumu" əsərində İslamdan öncə ərəb kahinlərinin öncəgörmələr edərkən yaydan bir alət kimi istifadə etdiklərini qeyd edir (Qasımova, 2007: 280). Cahiz də əsərində şüubilərə qarşı çıxarkən məhz bu alətlərin arxetipik mahiyyətinə istinad edir. Şüubilərin bu ittihamlarına qarşı Cahizin mülahizələri də inandırıcı səslənir. Ədib əsa ilə bağlı fikirlərində ərəblərin bu aləti söz sənəti ilə bağlamasına dini cəhətdən haqq qazandırır və peyğəmbərlərin qissələrindən bəhrələnərək əsanın heç də adicə bir çubuq olmayıb, dərin rəmzi mənalar daşıdığını iddia edir:

والدليل على أن أخذ العصا مأخوذ من أصل كريم، ومعدن شريف من المواضع التي لا يعيبها الأجاهل، اتخاذ سليمان بن داود صلى الله عليه العصا لخطبته وموعظته ومقاماته وطول صلاته ولطول التلاوة والانتصاب... وقد جمع الله لموسى بن عمران عليه السلام في عصاء من البرهانات العظام (əl-Cahiz, 1998: 30-31).

*Mənim dəlilim budur ki, əsanın əsli və mənbəyi çox şərəflidir. Onun mövqeyinə ancaq cahillər eyib tuta bilər. Bir vaxtlar Davud oğlu Süleyman da xütbə və moizə söyləyəndə, namaz qılanda, tilavət edəndə əsa götürərdi. Allah Musa ibn İmrana verdiyi bir sıra aşkar möcüzələrini əsada cəmlədi.*

Cahiz, görünür, dini-mifik düşüncəyə dərindən bələd olduğundan əsanı ağac arxetipi ilə əlaqələndirməyi də unutmur. Mifik düşüncədə kosmosun müxtəlif təbəqələrini birləşdirən ümumdünya ağacının mühüm yeri var. Dinlər tarixində, peyğəmbərlərin qissəsində də ağac mühüm yer tutur.

Beləliklə, Cahiz ərəbin hər bir adətinə dərin rəmzi məna verir. O, ərəblərin söz sənətini məharətlə dini rəvayətlərlə, peyğəmbərlərin qissəsi ilə əlaqələndirir. Bununla da o, ərəblərin sivilizasiyadan uzaq səhra adamı kimi tanınmasını rədd etmiş olur.

## Nəticə

Bütün bu polemikalarda hər iki tərəfin özünü əsil-nəcabət və mədəniyyət baxımından gücləndirmə cəhdini görürük. Ərəb təəssübkeşləri şüubilərin ideoloji hücumları qarşısında geri çəkilmir, məhz söz sənətində və İslamı yaratmaqla bəşər tarixində üstün mövqelərini vurğulayırdılar. Nəsr əsərlərində yer alan mülahizələr poeziyada daha kəskin xarakter kəsb edirdi.

Təbii ki, antişüubi hərəkatı nümayəndələri özünümüdafiə taktikası ilə kifayətlənməyib, şüubilərə qarşı əks-hücuma keçirdilər. Onların fikrincə, farsların və romalıların çox fəxr etdikləri monarxiyalar heç də insanları xoşbəxt etmirdi. Bu, İslamın bərabərlik ideyasına zidd olub, cəmiyyətdə insanları təbəqələrə ayırırdı (Sarvan, 2008: 48). Onlar ərəb səxavəti müqabilində fars xəsisliyini kəskin tənqid atəşinə tuturdular.

## QAYNAQLAR:


1. Qasımova A. (2017). *Cahiliyyə ərəblərinin əqli-mənəvi durumu*. Bakı: Elm.
2. Sarvan S. (2008). Cultural Polemics in the Early Islamic World: Shu'ubiyya Controversy, *Journal for the Study of Peace and Conflict*
3. إبن عبد ربّه، العقد الفريد، تحقيق عبد المجيد الرحيني ، الجزء الثالث، بيروت، دار الكتب العلمية، 1983
4. أبو عثمان عمر بن البحر الجاحظ، البيان والتبيين، تحقيق عبد السلام محمد هارون، المجلد الثالث، القاهرة، مكتبة الخانجي، 1998 د. ت.


### *Considerations on shu`ubi in arabic prose*

*JAMILA DEMIROVA*[**]


### *Summary*

*The Shu'ubi movement, which promoted freethinking in society, was not only an expression of ethnic thought in Arabic literature, but also reflected a number of important cultural processes. This included the revival of ancient pre-Islamic religious views of non-Arabs (for example, Manichaeism), a critical approach to Arabic poetic traditions, and the activation of heterodox movements within Islam (for example, Shiism). This literary process, which has its roots in the era of ignorance, that is, the freethinking of ethnic minorities, reached its peak in the 8th–10th centuries, which is considered the golden age of the Abbasids.*

*The fact that the Shu'ubis boasted of their original lineage and insulted the Arabs in the next stage mobilized the Arab fanatics. The classicism and return to traditions that constituted the resistance against the Shu'ubis in literature strengthened. Among the Arab fanatics, who presented the Arabs as the owners of the ancient art of speech, the collection of poetry samples was taken care of, and many anthologies appeared. The disputes and discussions typical of the Mu'tazilites in society reached their peak. Mosques and markets became the arena of debate between Arab and non-Arab peoples. These disputes paved the way for a number of literary examples, the works of al-Jahiz and Ibn Abd Rabbih.*


[**] Doctor of Philosophy in Philology; National museum of Azerbaijani Literature named after Nizami Ganjavi; jamiladamirova@yahoo.com

***Keywords:*** *Shuubi movement, antishuubiyya, Arab-Ajam relations*

### *Размышления о Шууби в арабской прозе*

***ДЖАМИЛА ДЕМИРОВА**** * * **

***Резюме***

*Движение Шууби, пропагандировавшее свободомыслие в обществе, было не только выражением этнической мысли в арабской литературе, но и отражало ряд важных культурных процессов. К ним относятся возрождение древних доисламских религиозных взглядов неарабов (например, манихейства), критический подход к арабским поэтическим традициям и активизация еретических движений внутри ислама (например, шиизма). Этот литературный процесс, уходящий корнями в эпоху невежества, то есть свободомыслия этнических меньшинств, достиг своего пика в VIII–X веках, которые считаются золотым веком Аббасидов.*

*Тот факт, что Шуубиты хвастались своим исконным происхождением и оскорбляли арабов на следующем этапе, мобилизовал арабских фанатиков. Классицизм и возвращение к традициям, составлявшие основу сопротивления Шуубитам в литературе, усилились. Среди арабских фанатиков, представлявших арабов как обладателей древнего искусства речи, велась работа по сбору поэтических образцов, и появилось множество антологий. Споры и дискуссии, характерные для мутазилитов в обществе, достигли своего пика. Мечети и рынки стали ареной дебатов между арабским и неарабским народами. Эти споры проложили путь для ряда литературных произведений, таких как работы аль-Джахиза и Ибн Абд Раббиха.*

***Ключевые слова:*** *Движение Шуубия, анти-шуубия, арабо-аджамские отношения.*

**Redaksiyaya daxil olma tarixi: 14.05.2024**
**Çapa qəbul tarixi: 12.09.2024**
**Çap olunma tarixi: 22.10.2024**

*** Кандидат филологических наук; Национальный музей Азербайджанской Литературы имени Низами Гянджави; jamiladamirova@yahoo.com